İstehlak



# Dərmanlar niyə ucuzlaşmır?

***Azərbaycanda əczaçılıq sənayesində yerli istehsalın artması fonunda dərman bazarında qiymətlərin niyə ucuzlaşmadığı məsələsi yenidən aktuallaşıb. Rəsmi statistikaya görə, 2026-cı ilin yanvar ayında ölkədə 2,3 milyon manat dəyərində əczaçılıq məhsulları istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,8 dəfə çoxdur. İlk baxışda bu dinamika daxili bazarın idxaldan asılılığının azalması və qiymətlərin sabitləşməsi üçün müsbət siqnal kimi görünür. Lakin real bazar göstəriciləri fərqli mənzərə ortaya qoyur.***

“

*Azərbaycanda dərman qiymətlərinin yüksək olmasının əsas səbəbi idxaldır*

Məsələ ondadır ki, istehsalın artımı hələlik bazarın strukturunda həlledici dəyişiklik yaratmayıb. Yanvar ayında əhalinin əczaçılıq məhsulları və tibbi ləvazimatlara xərclədiyi vəsait 141,1 milyon manat təşkil edib. Bu rəqəmlə müqayisədə 2,3 milyon manatlıq yerli istehsal ümumi bazarın cəmi təxminən 1,6 faizinə bərabərdir. Yəni istehsal artımı faiz ifadəsində yüksək görünsə də, həcm baxımından bazarın çox kiçik hissəsini əhatə edir və qiymətlərin formalaşmasına sistemli təsir göstərə bilmir.

Digər mühüm məqam idxal faktorudur. Hesabat ayında Azərbaycana 47,3 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal edilib. İdxal əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,7 faiz azalsa da, yenə də bazarın əsas yükünü xarici məhsullar daşıyır.

Üstəlik, yerli istehsal edilən dərmanların əhəmiyyətli hissəsinin xammalı- aktiv farmasevtik maddələr, qablaşdırma materialları və texnoloji komponentlər xaricdən gətirilir. Bu isə o deməkdir ki, istehsalın "yerli" olması tam mənada idxaldan azad demək deyil. Valyuta məzənnəsi, beynəlxalq logistika xərcləri və qlobal qiymət dəyişiklikləri daxili maya dəyərinə birbaşa təsir göstərir.

Ekspertlər hesab edirlər ki, qiymətlərin ucuzlaşmamasının digər səbəbi bazarın struktur xüsusiyyətləri ilə bağlıdır. Azərbaycanda dərman bazarı əsasən idxal yönümlüdür və distribyutor şəbəkəsi məhdud sayda iri oyunçuların nəzarətindədir. Rəqabətin məhdud olduğu mühitdə istehsal artımı avtomatik olaraq qiymət azalmasına çevrilmir. Bundan əlavə, dərman qiymətlərinin bir hissəsi dövlət tərəfindən tənzimlənsə də, satış zəncirində formalaşan əlavə xərclər və mənfəət marjası son qiymətə təsir göstərir.

Struktur aspektdən baxdıqda, yerli istehsal daha çox patent müddəti bitmiş və analoji tərkibli dərmanları əhatə edir. Halbuki əhalinin xərclərinin böyük hissəsi idxal olunan, patent qorunması altında olan və ya daha yüksək texnologiyalı preparatlara yönəlir. Bu seqmentdə isə yerli alternativlər hələ geniş yayılmayıb. Nəticədə, bazarın əsas pul dövriyyəsi yenə də idxal məhsulları üzərində cəmləşir.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli deyib ki, Azərbaycanda dərman qiymətlərinin yüksək olmasının əsas səbəbi idxaldır. Onun sözlərinə görə, xaricdən gətirilən dərmanlarda daşıma xərcləri və vergilər qiymətə birbaşa təsir edir.**

Eyni zamanda bazarda rəqabətin şəffaf olmaması ciddi problem yaradır. İdxalçılar qiymətlərə təsir imkanına malikdir və idxalda təmərküzləşmə ədalətli qiymətlərin formalaşmasına mane olur. Ekspert qeyd edib ki, yerli istehsalın olması dərmanların ucuzlaşacağı anlamına gəlmir: "Əksinə, yerli istehsal daha baha ola bilər. Çünki istehsalın təşkili üçün yüz milyonlarla manatlıq investisiya tələb olunur və bunun səmərəliliyi yalnız böyük bazar olduqda mümkündür. Kiçik daxili bazarda hər şeyi istehsal edərək ucuzlaşdırmaq mümkün deyil. Azərbaycan dərmanını Avropa bazarına çıxara bildiyi zaman istehsal səmərəli olar. Yoxsa yalnız ölkədə istehsal etmək qiymətlərin azalmasına gətirmir. Hər şeyi istehsal etmək mümkün deyil və ucuz olacaq demək qeyri-real fikirdir".

***Sevinc***